# 200 ilin 44 günü – Anım Günü

## 27 sentyabr – Azərbaycan Şəhidlərini Anım Günü ərəfəsində



**Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, müqəddəs Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Prezidenti 27 sentyabrın respublikamızda Anım Günü kimi qeyd olunması ilə bağlı sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına yüksək ehtiramın göstəricisidir. Dünya azərbaycanlıları 27 sentyabrda bütün dövrlərdəki şəhidlərimizi bir daha minnətdarlıqla anacaq.**

Ermənistan 27 sentyabr 2020-ci il, saat 06.00-dan başlayaraq, işğal olunmuş ərazilərimizdə növbəti hərbi təxribat törətdi, yaşayış məntəqələrimiz, döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə tutuldu. Nəticədə, hərbi qulluqçularımız, onlarla yanaşı, (ikisi uşaq olmaqla) 11 dinc sakinimiz həlak oldu. Beləliklə, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev azğınlaşmış düşmənin hərbi təxribatının qarşısını almaq, onu öz təcavüzkarlıq siyasətinə son qoymağa məcbur etmək məqsədilə bütün cəbhə boyu əks-hücum əmri verdi. Bununla da, 44 gün sürən müharibə ərzində müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı düşmən işğalından azad etdi. Bu, beynəlxalq hüququn, tarixi ədalətin bərpası, erməni faşizminin belinin qırılması idi. 30 illik işğal 44 gün içində aradan qaldırıldı.

Yeri gəlmişkən, Vətən müharibəsində iştirak edənlərə verilən yüksək qiymət digər önəmli forma və məzmunlarda da ləyaqətlə ifadə olunmaqdadır. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını ləyaqətlə, vicdanla, uğurla yerinə yetirmiş hərbi qulluqçularımız ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmuşlar. “Vətən Müharibəsi Qəhrəmanı” adı, “Zəfər”, “Qarabağ”, “Vətənə xidmətə görə”, “Rəşadət”, “Azərbaycan Bayrağı” ordenləri, habelə “Vətən uğrunda”, “İgidliyə görə”, “Döyüşdə fərqlənməyə görə”, “Cəsur döyüşçü”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Zəngilanın azad olunmasına görə”, “Suqovuşanın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə”, “Laçının azad olunmasına görə”, “Hərbi xidmətlərə görə” medalları Vətən müharibəsi iştirakçılarına (və ya şəhidlərimizin ailə üzvlərinə) təqdim olunmuşdur. “Vətən Müharibəsi Qəhrəmanı” adı başda olmaqla, bu təltiflərin önəmli hissəsi yeni təsis olunub və ilk dəfə təqdim edilib.

Dövlətimiz hər bir qazi və şəhid ailəsinin yanındadır. Ölkəmizdə “YAŞAT” Fondu, habelə icra hakimiyyətlərində müvafiq şöbələr yaradılmışdır.

### Haqq, ədalət və zərurət

Otuz illik işğal da daxil olmaqla, yaxın-uzaq tarixə nəzər salsaq, görərik ki, xarici havadarları tərəfindən silahlandırılan və hər cür siyasi-hərbi dəstəklə haqsızcasına müdafiə olunan ermənilər Azərbaycan ərazisinin 20 faizini işğal etmişdi. İşğal zamanı yaşayış məntəqələri dağıdılmış, dinc əhali amansızcasına qətlə yetirilmişdi. Qaradağlı, Başlıbel, Ağdaban, Bağanis - Ayrım kəndlərində törədilmiş vəhşiliklər erməni faşizminin əsl simasını göstərir. Bu qətliamlar fərqli vaxtlarda (1990, 1992, 1993), fərqli coğrafiyalarda edilib (Xocavənd, Kəlbəcər, Qazax). Yəni erməni xisləti məkan və zaman tanımadan hər yerdə, hər zaman öz bədxahlığını, mənfur xislətini göstərmişdir.

Dinc azərbaycanlılara qarşı törədilən qətliamlar içərisində Xocalı soyqırımı xüsusi amansızlığı, qəddarlığı ilə seçilir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri 366-cı motoatıcı alayın dəstəyi ilə 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirdi. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü, 8 ailənin bütün üzvləri öldürüldü, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirdi, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu.

Vaxtı ilə işlədilmiş rəsmi istilahla desək, “Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi”nin nizamlanması üçün 24 mart 1992-ci ildə təsis olunmuş ATƏT-in (keçmiş ATƏM) Minsk Qrupu öz fəaliyyəti ərzində məsələnin həllinə yox, daha artıq dərəcədə dondurulmasına çalışmış və bununla da aparılan danışıqlar nəticəsiz olmuşdur. İşğalçı Ermənistanla işğala məruz qalmış Azərbaycana eyni münasibət bəslənilmiş, beynəlxalq qətnamələr, ədalətli sülh çağırışları kağız üzərində qalmışdır. Məsuliyyətli ölkə olaraq Azərbaycan həmişə beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır.

BMT də işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən (822, 853, 874, 884 saylı) 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır.

Bütün bu illər ərzində Ermənistan işğalçı siyasətini davam etdirmiş, ərazilərimizdə hərbi, ekoloji, iqtisadi, psixoloji və s. təxribatlar törətmiş, təmas xətti boyunca yaşayan dinc əhalimizin rahat yaşamasına imkan verməmişdir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin mədəni irsinə, iqtisadiyyatımıza da ağır zərbə vurmuşdur. Bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün həyatına mübtəla edilmişdir. Ermənistan bu müddət ərzində işğal altında saxladığı Azərbaycan ərazilərini acınacaqlı duruma salmış, şəhər və kəndlərimizi, abidələrimizi, hətta qəbristanlıqlarımızı dağıtmış, infrastrukturu məhv etmiş, ölkəmizə mənəvi itkilərlə yanaşı, milyardlarla dollar dəyərində maddi ziyan vurmuşdur.

2016-cı il aprel ayında Lələtəpə, 2018-ci il may ayında Günnüt və 2020-ci il iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan işğalla barışmayacağını nümayiş etdirmişdir. Lakin Ermənistan bu döyüşlərdən və döyüşlərin nəticəsindən də düzgün nəticə çıxarmamış, Azərbaycana qarşı diversiyaları davam etdirmiş, erməni siyasətçiləri aşağılayacı və təxribatçı bəyanatlar verməyə davam etmişdir.

### 200 il əvvəl başlayan proses

Ermənilərin xalqımıza qarşı düşmənçilik siyasətinin yaşı 30, hətta 102 il əvvəldən başlamayıb. Bu siyasətin ən azı 200 illik tarixi var. Çar Rusiyası zamanı əzəli Azərbaycan torpağı Qarabağa köçürüldükləri vaxtdan başlayaraq ermənilər “bütün yaxşılıqlara ölüm” şüarı ilə silahlanıb, onlara yurd-yuva verən, xeyirxahlıq edən xalqa gizli-açıq qəsdlər etməyə başladılar. Bizim torpaqlarda məskunlaşdıqları ilk gündən ermənilər Azərbaycan toponimlərini dəyişməyə, münbit əraziləri ələ keçirməyə çalışdı, çoxluq təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırdılar.

Azərbaycanlıların öz dədə-baba torpaqlarından qovulması Sovet dövründə də davam etdi. 1948–1953-cü illərdə Ermənistandakı tarixi-etnik torpaqlarından 150 min azərbaycanlı deportasiya olunaraq, Azərbaycanın Kür–Araz düzənliyində yerləşdirildi. 1988-ci ildə daha 250 min azərbaycanlı öz doğma yurdundan qovuldu, bununla da Ermənistan monoetnik dövlətə çevrilmiş oldu. 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının “dənizdən dənizə Ermənistan” sərsəm ideyasını gerçəkləşdirmək cəhdi yaşayış məntəqələrinin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

Çox təəssüf ki, ermənilərin tarixi ərazilərimizdə həyata keçirdiyi soyqırım aktlarına vaxtında qiymət vermək mümkün olmayıb, yaxud belə qiymət vermək üçün siyasi iradə göstərilməyib. Belə bir siyasi-hüquqi qiymət ilk dəfə ümummilli lider Heydər Əliyev tərəfindən verildi. Ulu öndərin 26 mart 1998-ci ildə imzaladığı fərmanla 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edildi.

Keçmiş keçmişdir, o, gələcək deyildir. Ermənilər Qafqaza gələndən (gətiriləndən də demək olar) bu torpaqlara narahatlıq gətirdilər...

### O gün gəldi...

Və nəhayət, illərdən bəri gözlənilən o gün gəldi. İşğal zülməti bitdi, azadlıq Günəşi doğdu. XXI yüzillikdə zülməti, faşizmi, terroru, separatizmi, vandalizmi... təmsil edən ermənilər hələ bir də özlərini mədəni xalq, qədim xalq, ari xalq, qəhrəman xalq adlandıracaq qədər arsızlıqdan da əl çəkə bilmir... Ancaq vəhşi qəbilə, qorxaq və namərd yığnağı olduqlarını görmək üçün işğalda saxladıqları viran torpaqlara, ölülərin sümüklərini belə çıxartdıqları qəbristanlıqlara və müharibə meydanından qaçışlarına... baxmaq yetərli oldu.

### Biz necə qalib gəldik?

Qalibiyyət bizim xalqın fitrətindədir. Xalqımız öz adına layiq qəhrəman orduya malikdir. Ölkənin hərbi qüdrətini artıran ən əsas amillərdən biri xalqımızın vətəncanlılığıdırsa, bununla eynigüclü başqa bir amil uğurlu ordu quruculuğudur. Ulu öndər Heydər Əliyevin titanik xidmətləri ilə formalaşan, inkişaf yoluna çıxan Azərbaycan Silahlı Qüvvələri, bu gün müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə şanlı-şərəfli mandat – missiyasını uğurla davam etdirir. Məhz bu uğurlu siyasət nəticəsində Azərbaycan Ordusu Cənubi Qafqazın şəksiz ən güclüsü, regionun, ümumən dünyanın ən güclü ordularından biridir. Ordumuzun çağdaş texnika ilə təchizatı, ardıcıl keçirilmiş təlimlər, ordunun döyüş potensialının gücləndirilməsi, yerli hərbi sənayenin yaradılması və idxaldan asılılığın müəyyən dərəcədə azaldılması – bütün bunlar məqsədyönlü siyasətin tərkib hissəsidir.

İlham Əliyevin dövlət başçısı olduğu 17 il içində ölkəmizin müdafiə sisteminin möhkəmləndirilməsi, Silahlı Qüvvələrimizdə aparılan islahatlar, bunun nəticəsi olaraq baş verən keyfiyyət dəyişiklikləri danılmazdır. O da danılmazdır ki, ölkəmizdəki milli həmrəylik, təsirli hərbi-siyasi strategiya və əlbəttə, ordumuzun gücü düşmənin ağır məğlubiyyətini qaçılmaz etmişdir.

Bəli, 44 günlük Vətən müharibəsi Ermənistanın işğalçılıq siyasətinə son qoydu, düşmənə unutmayacağı tarixi dərs verdi, görk oldu. Qəhrəman hərbçilərimizin misilsiz rəşadəti hesabına, cənnətməkan şəhidlərimizin müqəddəs qanı bahasına bütün dünya Azərbaycanın şanlı qələbəsinin şahidi oldu. Müharibənin gedişində də çox fərqli dairələrdən gələn ardıcıl təzyiqlər, təhdidlər Azərbaycanı öz haqq yolundan döndərə bilmədi. Azərbaycanın Zəfəri 200 illik bir antiazərbaycan gedişatını, torpaqlarımızın özgələşdirilməsi, ərazimizin kiçilməsini dayandırdı.

### Hərb tarixində yeni döyüş taktikalarının müəllifi – Azərbaycan Ordusu

Azərbaycan Ordusunun hərbi taktikası ABŞ-ın 1946-cı ildə (II Dünya müharibəsindən sonra) qurulmuş Milli Müharibə Kollecinin (National War College) və 1856-cı ildə qurulmuş Seton Hall Universitetinin (Seton Hall University) Diplomatiya və Beynəlxalq Münasibətlər Məktəbinin analitik nəşrlərində öyrənilərkən belə qənaətə gəlinib ki, bizim qarşımızda hətta dünyanın aparıcı ölkəsi olsaydı belə, onun da heç bir şansı olmayacaqdı. Bu, Qərbin bəzi aparıcı media orqanlarının da qənaətidir. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir. 44 günlük müharibə zamanı istifadə edilən döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur və artıq ali hərbi məktəblərin dərsliklərinə salınır, öyrənilir. ABŞ Hərbi Akademiyası və Pentaqon rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edir. Heç şübhəsiz, ordumuzun döyüş hazırlığının, manevr təcrübəsinin artırılmasında Türkiyə ilə müxtəlif dövrlərdə keçirilmiş birgə hərbi təlimlərin özünəməxsus yeri olub. Birgə hərbi təlimlər sayəsində Azərbaycan Ordusunun təcrübəsi və taktik manevretmə səriştəsi əsaslı şəkildə artmışdır.

Bütün bu deyilənlər hərbi quruculuq işinin cənab Prezidentin dövlət siyasətinin strateji prioritetlərindən biri olduğunu bir daha əyani şəkildə göstərməkdədir.

### Məsuliyyətsiz Ermənistanın məsuliyyəti

Azərbaycan 30 illik işğalı 44 gün içində aradan qaldırdı. Ölkəmiz postmüharibə dövründə də öz ləyaqəti ilə seçilir. Ermənistan nə müharibə dövründə məsuliyyət anladı, nə də postmüharibə dövründə öz məsuliyyətini anlayır. Ancaq Ermənistan hərbi-siyasi rəhbərliyi bilməli, anlamalıdır ki, törətdikləri bütün cinayətlərə görə beynəlxalq müstəvidə cavab verəcəklər. Bu işin geci-tezi var, ancaq olmamaq variantı yoxdur. Ermənistanın cəzalandırılması yalnız bizim üçün deyil, bütün tərəqqipərvər bəşəriyyət üçün vacibdir. Hər kəs anlamalıdır ki, bir müharibə cinayəti törətmiş dövlət cəzalanmasa, bu, həmin dövlətin özü və oxşarlarını yeni cinayətlərə sövq edəcək. Belə bir sövqetmə yeni qanqadalar, yeni dağıntılar, yeni cinayətlər deməkdir.

Hər şey bir yana, Ermənistanın yalnız 44 günlük müharibə ərzində törətdiyi təxribatlara görə cavab verməsi, bu uğursuz dövlətin tam iflasını şərtləndirəcəkdir. Belə ki, Azərbaycanın şəhərləri – dinc mülki şəxslər hədəfə alınmaqla ballistik raketlərlə, fosforlu, kasetli bombalarla atəşə tutulmuşdur. Müharibə dövründə belə atəşlərlə yüzə yaxın mülki şəxs, o cümlədən körpələr, uşaqlar, qadınlar, qocalar həlak olmuşdur. 400-dən çox mülki şəxs yaralanmış, 5 mindən çox ev dağıdılmış, zədələnmişdir. Döyüş meydanından uzaqdakı Bərdə, Gəncə, Goranboy, Naftalan, Mingəçevir, Yevlax, Qəbələ və b. rayonlara raket zərbələri endirilməsinin izahı ola bilməz və bu, açıq müharibə cinayətidir.

Bütün bunlar azmış kimi, postmüharibə dövründə belə, Ermənistan iki Üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq, Azərbaycan ərazisinə silahlı dəstələr göndərmiş, ərazilərimizdə minalar basdırmış, daha öncə basdırılmış minaların yerini (xəritəsini) verməkdən imtina etmiş, verdiyi xəritələrin isə cəmi 25 faizi doğru çıxmışdır. Bunlar rəsmi İrəvanın hərbi cinayətkar olmasının növbəti sübutudur. Sübutdan çox sübut var, yetər ki, beynəlxalq ictimaiyyət ikilistandartlardan əl çəksin... Azərbaycan dövlətinin öz haqlı mövqeyində prinsipiallığı, dövlət başçımızın qətiyyəti, siyasi iradəsi, dövlət – xalq birliyi, zəfərimizin yaratdığı yeni reallıqlar beynəlxalq məhkəmələr müstəvisində də zəfərimizi təmin edəcəkdir. Dövlətimiz var olsun!

***Qənirə PAŞAYEVA,***
***Milli Məclisin Mədəniyyət komitəsinin sədri***

# Şanlı tariximizin hünər, rəşadət və igidlik səhifəsi

**Azərbaycan xalqı çoxəsrlik, eləcə də çağdaş hərb tariximizin ən əzəmətli hadisəsinin ildönümünü təntənə ilə qeyd edəcək. Xalqımızın şərəf və ləyaqət tarixinə qızıl hərflərlə yazılmış səhifə olan 44 günlük Vətən müharibəsi və qazanılan möhtəşəm Zəfər gələcək nəsillər üçün də əbədi sevinc mənbəyi olacaq. Məhz keçən il Azərbaycan xalqının müzəffər Ali Baş Komandanının və rəşadətli ordumuzun qəhrəmanlığı ilə otuz ilə yaxın müddətdə Ermənistan ordusunun işğalı altında olan torpaqlarımız azad edilərək, dövrümüzün hünər, rəşadət, igidlik və şücaət salnaməsinə çevrildi.**




Bu döyüşlər zamanı möhtərəm Prezidentimizin komandanlığı altında əfsanəvi “Dəmir yumruq” əməliyyatı ilə ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Müzəffər Ali Baş Komandanımızın qətiyyəti, əyilməz siyasi iradəsi və barışmaz mövqeyi ilə dünya bir daha Azərbaycan xalqının birliyinin, həmrəyliyinin, dövlətimizin gücünün və ordumuzun məğlubedilməzliyinin şahidi oldu. Möhtərəm Prezidentimizin beynəlxalq aləmdəki informasiya və diplomatiya savaşındakı misilsiz uğurları 44 günlük Vətən müharibəsində qələbənin əldə edilməsində şəksiz və həlledici rol oynadı. Bu zəfər həm də son iki yüz il ərzində Azərbaycan və Türkiyəyə qarşı düşmənçilik mövqeyində və ərazi iddiasında olan təcavüzkar Ermənistan və onun havadarları üzərində tarixi bir qələbə idi.

Azərbaycan xalqının qürur mənbəyi olan bu qələbənin möhtəşəmliyi və doğurduğu sevinc sözlə ifadə edilə bilmədiyi kimi, onun siyasi, hüquqi, tarixi, iqtisadi, etnokultural və geosiyasi əhəmiyyəti də ölçüyə gələ bilməyəcək dərəcədə misilsizdir. Bölgədə yeni reallıqlar yaratmış və sözün həqiqi mənasında, dayanıqlı sülhün və inkişafın qarantı olan Azərbaycanın haqq və ədalət uğrunda apardığı Vətən müharibəsi, onun taktika və strategiyası, istifadə edilən müasir hərbi texnologiyaları bu gün bir sıra inkişaf etmiş ölkələrdə və beynəlxalq təşkilatlarda tanınmış hərbi ekspertlər tərəfindən müasir hərb elminin yeni səhifəsi adlandırılır.

44 gün ərzində təcavüzkar qonşumuzdan fərqli olaraq, rəşadətli ordumuzun nümayiş etdirdiyi hərb mədəniyyəti, beynəlxalq və humanitar qanunlara riayət etməsi dünya hərb tarixinə örnək səhifə kimi yazıldı. Bu müharibə həm də sübut etdi ki, vətən torpağını namus, qeyrət bilən Azərbaycan xalqı şəhidliyi şərəf, savaş meydanında döyüşməyi isə toy-bayram hesab edir. Xüsusilə qeyd etmək lazımdır ki, ötən illər ərzində Azərbaycan xalqının əvəzolunmaz və yenilməz lideri diplomatiya və informasiya savaşında saxtalaşdırılmış erməni tarixinin mifologiya üzərində qurulduğunu beynəlxalq təşkilatlarda dəfələrlə sübut etmişdi. Xüsusilə, 2020-ci il fevral ayının 15-də keçirilmiş Münhen Təhlükəsizlik konfransında möhtərəm Prezidentimiz İlham Əliyev dünyanın gözü önündə tarixi faktlara və beynəlxalq hüquqa istinadən, işğalçı Ermənistanın baş nazirinin, eləcə də, onun ideoloqlarının yalanlarını ifşa etdi və bir daha onları dəstəkləyən qüvvələrin, o cümlədən, dünya erməniliyinin əsl mahiyyətini açdı. Keçən il Vətən müharibəsi zamanı möhtərəm Prezidentimizin çıxışlarının birində də “Bizim Zəfərimiz Münhendən başlayır” deməsi də Münhendən bugünədək baş verən tarixi hadisələrə uzaqgörənlik və müdrikliklə verilən qiymətdir. Bu mənada, Münhen konfransında dünya birliyinə çox önəmli mesajlar verməklə Azərbaycanın məğlubedilməz lideri öz xalqına ən yaxın zamanda savaş meydanında qazanacağımız zəfərin müjdəsini də vermiş oldu. Konfransda Ermənistanın baş nazirinə hüquq və tarix dərsi verilməsinə, ifşaedici məğlubiyyətinə baxmayaraq, işğalçılıq siyasətinə son vermək əvəzinə, o, müxtəlif hərbi təxribatları, çıxış və hərəkətləri ilə münaqişəni yenidən alovlandırmışdı. Azərbaycan xalqının səbrini sınağa çəkməyə cəhd edən Paşinyan bununla da, təcavüzkar və qondarma Ermənistan dövlətinin, onun havadarlarının və erməni faşizminin sonunu gətirmiş oldu.

Fəxrlə qeyd etmək lazımdır ki, möhtərəm Prezidentimiz bütün dövrlər ərzində prinsipiallığı, qətiyyəti və əzmkarlığı ilə həqiqi mənada qalib lider və müzəffər Ali Baş Komandan obrazını yaratmışdır. Onun Münhen konfransında Qarabağın Azərbaycanın tarixi torpağı olmasını təsdiq edən Kürəkçay, eləcə də Cənubi Qafqazın tarixində mühüm əhəmiyyət kəsb edən Gülüstan və Türkmənçay müqavilələri haqqında, eləcə də, son iki yüz ildə həm çar Rusiyası, həm də Sovet dövründə bu bölgədə baş verən proseslər, azərbaycanlıların deportasiyası, demoqrafik nisbətin xalqımızın əleyhinə məqsədyönlü dəyişdirilməsi, yerli toponimlər barədə məlumatları beynəlxalq auditoriyaya çatdırmışdı.

Dövlət başçımız erməni xislətinin mahiyyətinin və onun yaratmış olduğu problem və faciələrin tarixi kökü qədim dövrlərə qədər uzandığını, erməni millətçi və ideoloqlarının bu xislətinin tarix boyu Azərbaycan və Türk xalqlarına qarşı müxtəlif cinayət əməlləri törətdiyini gerçək faktlarla əsaslandırmışdır. Fəxarətlə demək lazımdır ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev daim istər müharibəyə qədər, istərsə də müharibənin gedişi və post müharibə dövründə müasir dünyanın mübarizə məkanı olan informasiya mübarizəsində cəsarətli və arqumentli çıxışları ilə bütün ermənipərəst qüvvələri ifşa etmişdi. O, çəkinmədən XIX-XX əsrlərdə erməni millətçilərinin törətdikləri cinayətkar əməllərinin xronologiyasının istər çar Rusiyası istərsə, də Sovet Rusiyasının arxivlərində təsbit olduğunu bəyan etmişdi. Erməni millətçilərinin müsəlmanlara, xüsusilə də azərbaycanlılara və türklərə qarşı tətbiq etdiyi əsassız tarixi ədavət və düşmənçilik çar Rusiyasının Cənubi Qafqaza dair arxiv sənədlərində, o dövrün tarixi personajlarının məktub və yazışmalarında aydın əks olunmuşdur. Bütün bu anti-Azərbaycan və anti-türk siyasəti Sovet imperializmi dövründə daha ifrat dərəcədə aparılmışdır. Belə ki, həmin mənfur siyasət Siyasi Büroda, eləcə də, Sovet İttifaqının rəhbərliyində təmsil olunan, mahiyyətini və niyyətini dəyişməyən bolşevik maskalı erməni daşnakları və onların havadarları tərəfindən sürətlə, daha çoxşaxəli və faciəli formada həyata keçirilirdi.

İki yüz il ərzində Azərbaycan xalqına qarşı həyata keçirilən bu mütəşəkkil və məqsədyönlü düşmənçilik və etnik təmizləmə XX əsrin sonuna doğru qondarma Ermənistan dövləti ərazisində kompakt yaşayan 250 mindən çox azərbaycanlının deportasiyası, Xocalı soyqırımının törədilməsi və Azərbaycanın 20 faiz torpağının – Qarabağın işğalı və burada yaşayan səkkiz yüz minə yaxın azərbaycanlının qovulması erməni vandalizminin və faşizminin, onları dəstəkləyən qüvvələrin cinayət əməllərinin nəticəsi idi. Bu mənada, möhtərəm Prezidentimizin bütün xarici səfərlərində və görüşlərində “münaqişənin necə həll edilməsi haqqında danışmaq üçün hər şeydən öncə biz geriyə qayıtmalı və məsələnin tarixinə baxmalıyıq”,- deməsi əslində bu problemin nə qədər ağır və dərin kökə malik olmasını dünya ictimaiyyətinə çatdırmaq idi. Bütün bunlarla, sözsüz ki, möhtərəm Prezidentimiz Ermənistanın hüquq normalarını pozmasını, eləcə də, təcavüzkarı dəstəkləyən bəzi beynəlxalq təşkilatları, habelə dövlətlərin haqsızlığını və riyakarlığını da açıq-aşkar sübut edirdi. Bu mənada, 2020-ci il sentyabrın 27- də möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin haqq və ədalət uğrunda “İrəli!” əmri ilə başlayan əks-hücum əməliyyatının hansı qüvvələrlə müharibə və mübarizə apardığımızın tam mənzərəsini ortaya qoyurdu. Bütün bunları düşündükcə, eləcə də, Vətən müharibəsi adlandırdığımız bu savaşda 44 gün ərzində baş verənləri təhlil etdikcə, dünya erməniliyi ilə mübarizə edən Azərbaycan xalqının əvəzolunmaz liderinin, onun qəhraman ordusunun, hər qarış Vətən torpağı uğrunda canından, həyatından keçmiş şəhid və qazilərimizin misli görünməmiş fədakarlıqlarını bir daha dərk edir və bununla qürur duyuruq.

Qalibiyyətlə bitirdiyimiz II Qarabağ müharibəsindən təxminən bir il keçməsinə baxmayaraq, əfsanəvi qəhrəmanlıq dastanına çevrilmiş mübarək zəfərimiz və onun əzəməti haqqında beynəlxalq aləmdə hələ də danışılır və müzakirə edilir. İllər, əsrlər keçəcək xalqımıza başucalığı gətirmiş tarixi qələbəmizin tükənməyən sevinci gələcək nəsillər üçün də qürur mənbəyi olacaqdır. Bu zəfəri şanlı tariximizə qanları ilə yazan şəhid və qazilərimiz daim minnətdarlıqla xatırlanaraq, ölməzlik rəmzi kimi həyat durduqca yaşayacaqlar!

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***